Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Dövlətçilik tariximiz

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 33 (1401) 17 fevral - 18 fevral 2017-ci il

# Qaraqoyunlu dövləti: Qara Yusif

(əvvəli ötən saylarımızda)

**Teymuri qoşunun Azərbaycandan çıxarılması, Qaraqoyunluların Azərbaycanın cənubunda möhkəmlənməsi Qara Yusiflə Sultan Əhməd arasındakı münasibətləri pozdu. Qara Yusifin siyasi və hərbi uğurları Sultan Əhmədi qorxuya saldı. O, Qara Yusiflə olan şərtini pozdu. Sultan Əhməd Qara Yusifin üzərinə hücuma keçməyə fürsət axtarırdı.**

Bu fürsət 1410-cu ilin yayında ələ düşdü. 1410-cu ilin yayında Sultan Əhməd Qara Yusifin əsas qüvvələrinin Ərizcana hücum edən Ağqoyunlu tayfa birliyinin başçısı Qara Yuluq Osmana və Amid qalasının hakiminə qarşı vuruşmasından istifadə edərək, Təbrizə hücuma keçdi və şəhəri tutdu. Şirvanşah I İbrahimin oğlu Kəyumərs də ona kömək edirdi. Bu, təbii idi. Çünki bu vaxt Cəlairilər zəif idilər, Şirvan üçün təhlükəli deyildilər. Şirvan qoşunu Sultan Əhmədi müdafiə etməklə Azərbaycanın cənub vilayətlərində möhkəmlənə bilərdi. Bundan xəbər tutan Qara Yusif Şirvan qoşunundan əvvəl Təbrizə çatdı. 1410-cu il avqustun 30-da Təbriz yaxınlığında Şənbi-Qazan adlı yerdə Qara Yusiflə Sultan Əhməd arasında döyüş başlandı. Bu döyüşdə Cəlairi qoşunu darmadağın edilir, Sultan Əhməd döyüş meydanından qaçıb gizlənməyə çalışarkən Qara Yusifin əlinə keçir. Azərbaycanda və İraqda hakimiyyətdən əl çəkməsi haqqında ondan yazılı iltizam alınaraq ertəsi gün edam edilir. Bununla da Cəlairilərin Azərbaycandakı hakimiyyətinə son qoyulur. Qara Yusif oğlu Qiyasəddin şah Məhəmmədi Bağdada canişin göndərdi. Beləliklə, 1410-cu ildə Qaraqoyunlu dövləti yarandı. Şimalda yerləşən Şirvanşahlar dövləti istisna olmaqla qalan Azərbaycan torpaqları, Şərqi Anadolu, Gürcüstanın şərq hissəsi, Qərbi İran və İraq bu dövlətin tərkibinə daxil edildi. Təbriz dövlətin paytaxtı oldu. 1411-ci ildə Qara Yusif özünü yox, oğlu Pirbudağı sultan elan etdi. Çünki dövrün ənənəsinə görə yalnız şah, sultan nəslinə mənsub olanlar qanuni hökmdar hesab olunurdular. Uzaqgörən Qara Yusif bunu yaxşı bildiyindən, Pirbudağı sultan Əhmədə oğulluğa vermişdi (həpsxanada olarkən). Ancaq yüksək idarəçilik hüququ Qara Yusifdə qalırdı. Qara Yusif dövrünün böyük şəxsiyyəti idi. O, qüvvətli süvari ordu yaratmışdı, özü Azərbaycanın cənub vilayətlərini, oğlanları isə dövlətin qalan hissəsini idarə edirdilər.

II Şənbi Qazan döyüşündə Şirvanşahların Sultan Əhmədə kömək etməsi Qara Yusifin Şirvana hücum etməsinə səbəb oldu. Bu zaman Şirvanşah I İbrahim gürcü hökümdarı və şəkili Seyid Əhməd Orlatla ittifaq bağlamışdır. 1412-ci ildə Kür çayı sahilində baş verən döyüşdə Şirvanşahların başçılıq etdiyi müttəfiqlərin birləşmiş qoşunu Qara Yusifin qoşunları tərəfindən məğlub edildi. Şirvanşah I İbrahim başda olmaqla müttəfiqlər əsir götürüldü. Qara Yusif əsirləri özü ilə bərabər Təbrizə gətirdi. Təbrizdə Qara Yusif əsir Şirvanşah İbrahimlə danışıqlar aparmağa başladı. O, İbrahimdən 1200 İraq tüməni, Şeyx Bəhluldan 200 tümən, qazı Mövlana Zahirəddindən 100 tümən məbləğində can bahası tələb etdi. Bu zaman Təbrizin tacir və sənətkar rəisləri, başda Şeyx Əxi Qəssab olmaqla, Qara Yusifin divanına gələrək əgər Qara Yusif pul əvəzinə mal qəbul etməyə razılıq verərsə, Şirvanşahın can bahasını dərhal ödəməyə hazır olduqlarını bildirdilər. Qara Yusif buna razı oldu və təbrizlilər Şirvanşahın azad edilməsi üçün Qara Yusifın divanına 1200 tümən məbləğində mal verdilər, əvəzində isə Şeyx İbrahim həmin məbləği Şirvan divanından almaq üçün Əxi Qəssabın və tacirlərin adına bərat kağızları verdi. Bundan sonra Qara Yusif Şirvanşah I İbrahimi azad edir (digər əsirlər başda Şəki hakimi Seyid Əhməd Orlat və gürcü hökümdarı olmaqla hamısı edam edilir). Kür döyüşü nəticəsində Şirvanşahlar Qaraqoyunlulardan asılılığı qəbul edirlər.

Qaraqoyunlu dövlətinin ən güclü düşməni Xorasanda qərar tutmuş Teymuri hökmdarı Şahrux idi. 1419-cu ildə Qara Yusif böyük ticarət əhəmiyyəti olan Sultaniyyə və Qəzvini tutdu. Qaraqoyunluların şərqə irəliləməsi Şahruxu qəti tədbirlərə əl atmağa sövq etdi. Sultan Şahrux Azərbaycanı, İraqı Qara Yusifin əlindən almaq və onu asılı bir hökmdar halına salmaq məqsədi ilə 1420-ci il avqustun 25-də Heratdan 200 minlik ordu ilə Azərbaycana yürüşə başlayır. Sultan Şahruxun qaraqoyunlularla döyüşdən qabaq qələbə naminə Quranın Fəth surəsini 12 min dəfə əsgərlərinə oxutdurması faktı onun Qara Yusifə necə təhlükəli, ciddi bir rəqib kimi baxdığını təsdiq edir. Teymuri hökmdarı Şahruxla savaşa qərar verən Qara Yusif xəstə olmasına baxmayaraq, ordusunun Təbrizdə toplanmasına qərar verir. O, döyüşə getməzdən öncə oğlanlarına yazdığı məktublarda teymuri ordusundan çəkiniləcək bir şeyin olmadığını göstərir. Şübhəsiz, teymurilərin hərb üsullarını, döyüş qaydalarını, qüvvətli və zəif tərəflərini onun qədər bilən olmamışdır. Mənbələr Qara Yusifin müəyyən hərbi-taktiki planlar (yeni ordu tipi) hazırlaması haqda da xəbər verirlər. Qaraqoyunlu qoşunu Təbrizdən cənubda Ucan şəhərinin şimal-qərbində yerləşən Səidabad kəndinə gələn zaman Qara Yusifin xəstəliyi daha da ağırlaşır. O, 1420-ci il noyabrın 13-də 65 yaşında vəfat edir. Beləliklə, sultan Şahruxla gözlənilən döyüş baş tutur. Qara Yusifin cəsədi Ərcişə aparılaraq dəfn edilir. Qara Yusifin ölümündən sonra Qaraqoyunlu dövləti zəiflədi.





Azərbaycan Qaraqoyunlu dövlətinin qurucusu Qara Yusif dövrünün görkəmli sərkərdələrindən və tanınmış simalarından biri olmuşdur. Onun çox mükəmməl sərkərdə olmasını, igidliyini başda teymurilər olmaqla bütün düşmənləri də etiraf etmişlər. Qara Yusifin qələbələri artıq bütün Şərqdə "Azərbaycan qoşununun tüğyanı" kimi qiymətləndirilirdi. Qara Yusif ölkəsində quruculuq işlərinə xüsusi diqqət yetirmiş, əhaliyə xoş münasibət göstərərək onları daim diqqətdə saxlamışdır.

**Qara Yusif güclü mərkəzi aparat yarada bilməsə də, feodal ara müharibələrini bir qədər zəiflətdi, əyanları hakimiyyətlə hesablaşmağa məcbur etdi. Tariximizin ən mühüm mərhələlərindən olan bu dövr haqqında ümumilikdə Qaraqoyunlu tayfalarının Azərbaycanda baş vermiş siyasi mübarizədə iştirakı, Qaraqoyunlu-Teymuri münasibətləri, Qaraqoyunlu-Ağqoyunlu münasibətləri, Qara Yusif və onun cəsur ordu başçısı, hökümdar kimi zaman tunelində yeri və rolu barədə Zeynəddin bin Həmdullah Qəzvininin "Zeyl-e tarix-e qoz de" ("Seçilmiş tarixə"ə əlavə), Nizaməddin Şaminin "Zəfərnamə" və Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" adlı əsərlərində geniş və qiymətli mənbədir.**

***Babək ƏBÜLFƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# "BULUD FAYTON"

**Bu gün söz məkanında, ədəbi camiyədə çözülən, danışılan mövzulardan biri də uşaq ədəbiyyatı ilə bağlıdır. Səsləndirilən fikirlər arasında daha çox qabardılan uşaqlarla bağlı, ümumiyyətlə böyüyən nəsillə əlaqəsi olan və onlara birbaşa nüfuz edə biləcək kitabların, nəşr nümunələrinin azlığı, hətta bəzən olmamasıdır. Təbii ki, səsləndirilən fikirlərdə hər kəsin öz arqumenti var. Amma bir məqam da var ki, onu görmək, onu arayıb-axtarmaq lazımdır. Təəssüf ki, bu gün Azərbaycan ədəbiyyatşünasları, tənqidçiləri, eləcə də ədəbiyyatla bağlı olan bir zümrə nədənsə ya özünü kənara çəkir, ya da əziyyətə qatlaşmaq istəmir. Əgər onlar həqiqətən uşaq ədəbiyyatının durumu ilə ciddi şəkildə məşğul olsaydılar və yaxud bu sahəyə qan-tərə batmaqla müdaxilə etsəydilər, onda görərdilər ki, uşaq ədəbiyyatımız var və yaranmaqda da davam edir. Elə təkcə professor, ədəbiyyatşünas, şair Rafiq Yusifoğlunun yaradıcılığına üz tutsaq, onda görərəik ki, Rafiq müəllim həm redaktoru olduğu "Göyərçin" jurnalında, həm də özünün fərdi yaradıcılığında uşaqlara xüsusi yer ayırır. Onun demək olar ki, yaraldıcılığının böyük hissəsini uşaqlara yazdığı şeirlər, poemalar təşkil edir.**

Bugünlərdə Rafiq Yusifoğlu öz ənənəsinə sadiq qalaraq övladlarımız, nəvələrimiz üçün özünün "Bulud faytonu"nu çap etdirib. Sox nəfis bir şəkildə tərtib edilmiş və mövzuların bölmələrinə uyğun rəngli şəkillərlə oxucu qarşısına çıxarılmış bu kitab həqiqətən də həm oxumalı, həm də hədiyyə etməli kitabdı. Mən kitabı vərəqlədikcə Rafiq Yusifoğlunun uşaq dünyasına nə qədər yaxından bələd olduğunu gördüm və anladım. Birmənalı şəkildə duydum ki, Rafiq Yusifoğlunun uşaqlarla bağlı dünyası çox rəngarəng və zəngindir. Onun şeirlərinə diqqət yetirəndə lokonik, yığcam, hətta uşaqların özlərinin danışdığı dildə ifadə etdiyi mənalara heyran qalmamaq mümkün deyil. Məsələn:

**Unutma ki, hər zaman**
**Bu torpağa bağlısan.**
**Azərbaycan qızısan,**
**Azərbaycan oğlusan!**

Və yaxud:

**Hər güldən çox sevirəm**
**Mən bu sarı çiçəyi...**
**O günəşdi, şəfəqlər**
**Sarı, sarı ləçəyi...**

Bu iki nümunəni istənilən uşağa oxumaq və onların çöhrələrindən, yozumundan mətləbi necə anladıqlarını aydınca görmək olar. Çünki günəşin rəngi də, Vətənin övladı olmaq da məlum bir həqiqət və sadə bir şəkildə ifadə edilmiş gerçəklikdir.

Rafiq Yusifoğlunun şeirlərindəki uşaq fantaziyası həm maraqlıdı, həm də təbiidi. Onun "Gün və ay" şeirində bir məqama diqqət yetirək.

**Gecə gündüz hey axır,**
**Sanma bulaq, çay yatır.**
**Ay çıxanda Gün batı**
**Gün çıxanda Ay batır...**

Düşünürəm ki, burdakı söz oyunu yaxşı mənada uşaqların yaddaşına həkk olunmağı necə deyərlər haqq edir. Yəni uşaq bu misraları bir-iki dəfə təkrarlayandan sonra yaddaşına köçürə bilər. Eləcə də "Vələs" şeirində olduğu kimi:




**Vələsə bax vələsə**
**İstəyir ki, yel əsə.**
**Küləyin sinəsi ndə**
**Sehrli saza dönə...**

Və yaxud:

**Bir həftədi hey yağır**
**Göydən leysan ələnir.**
**Bəs yağış bazar günü**
**İstirahət eləmir?**

Bu şeir nümunələrinə diqqət yetirəndə həqiqətən uşaqların maraq dünyasının ustalıqla ifadə edildiyini görməmək mümkün deyil. Təbii ki, bu bir məntiqin nəticəsidi. Axı böyüyən övladlarımız yaşlıların istirahət günləriylə bağlı səsləndirdikləri fikirləri müxtəlif məqamlarda eşidirlər, duyurlar və burdan da yağışın istirahət edib-etməməsi sualı ortaya çıxır. Onu da şair özünəməsus şəkildə poeziyaya gətirir.

Bu gün hər bir valideynin düşündüyü bir sual da var. O da cizgi filmləriylə, kompüterlə, televizorla uşaqların təması, onlardan gələn əks təsirlərdi. Bax, bu mövzunun özünü də şeirə gətirən, onun müs bət və mənfi tərəflərini şeir diliylə uşaqlara çatdıran Rafiq Yusifoğlu təkcə valideyn, şair kimi yox, həm də pedaqoq kimi də məsələyə yanaşır. Məsələn:

**Güzgünün qabağında**
**Durur bizim Fatimə.**
**Özünə bəzək-düzək**
**Vurur bizim Fatimə.**

**Tellərini dayarı**
**Saçlarına bant taxır.**
**Qızın hay-həşirinə**
**Nənə maraqla baxır.**

**- Hara hazırlaşırsan**
**Mənim balam, de mənə?!**
**İndicə cizgi filmi**
**Başlanacaq, ay nənə!**

**Baxacam paltarı**
**Şəfəq saçan Qarqıza.**
**Qoy onlar görsünlər ki**
**Mən də təmizkar qızam.**

Ümumiyyətlə, Rafiq Yusifoğlunun bu kitabındakı fəsillərin adları da elə şeirlərin mahiyyətini uşaqlara çatdırmaq gücündədi. Məsələn: "İşıq, su, torpaq, hava bütün dərdlərə dəva", "Küləyin nəğmələri", "Ömrün baharı, yayı, Tanrının sevgi payı", "Payıza bax, qışa bax, Qara bax, yağışa bax..." və digər başlıqlar təqdim olunmuş fotolarla birlikdə oxucunu artıq mövzuya hazırlayır, ona təqdimat edir, ipucu verir. Ona görə də istənilən bölümü açıb həmin ifadə olunan şəraitə, məkana, mövzuya daxil olmaq mümkündü. Məsələn, "Ağacın kökü torpaqda, İnsanın kökü eldədi..." bölümündə:

**Dayanmıram yerimdə,**
**Hey axıram, axıram.**
**Ağacın kökləriylə**
**Budaqlara qalxıram.**

**Torpağın sinəsinə**
**Axıram hopa-hopa.**
**Ayağım dəyən yerdən**
**Gül qalxır topa-topa.**

Və yaxud:

**Çiçək**
**yığırdı çiçək**
**Deyirdi**
**özü-özünə**
**Gül güldü,**
**çiçək çiçək.**
**Çiçəyin**
**bu sözünə**
**Gül güldü,**
**gözlərindən**
**Şeh axdı**
**çiçək çiçək...**

**Bəli, məhz bu cür şeirlərin ovqatında uşaqlarımızı böyütsək, onların uşaq dünyasını bəzəsək, inanıram ki, sabahımızından arxayın ola bilərik! Və sonda Rafiq Yusifoğlunun bu kitabına uğur olsun deyirəm! Və "Bulud faytonu"nu uşaqlarınız üçün əldə etməyə hər birinizi səsləyirəm.**

**Əbülfət MƏDƏTOĞLU**

# "Səfirlər Cocuq Mərcanlıda erməni vəhşiliklərinə çox təəccübləndilər"

**Xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndələri və beynəlxalq təşkilatların rəhbərləri Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində erməni vəhşiliklərinə çox təəccübləndilər.**

Bunu Trend-ə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov deyib.

K.Həsənov bildirib ki, xarici ölkələrin rəsmi nümayəndələri Cocuq Mərcanlının bugünkü vəziyyətini öz gözləri ilə gördülər:

"Səfirlər və beynəlxalq təşkilatların nümayəndələri erməni işğalı dövründə baş vermiş dağıntıları, söküntüləri, kəndin necə xarabalığa çevrilməsini öz gözləri ilə gördülər. Onlara izah olundu ki, bu kənd 5-6 ay erməni işğalında olmaqla belə xarabalığa çevrilib. Səfirlər öz çıxışlarında da qeyd etdilər ki, belə bir vəziyyətlə qarşılaşacaqlarını, kəndin belə xarabalığa çevrilməsini və bu cür vəhşiliyi görəcəklərini gözləmirdilər".

İcra başçısı əlavə edib ki, səfirlər və beynəlxalq təşkilatların nümayəndələri aparılan bərpa işləri, ərazilərin minalardan təmizlənməsi prosesi ilə də yaxından



tanış olublar, orada yaşayan bir ailəyə baş çəkdilər: "Hesab edirəm ki, səfirlər və beynəlxalq təşkilatların nümayəndələri bu səfərdən çox təsirləndilər".

**Qeyd edək ki, ötən gün xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndələri və beynəlxalq təşkilatların rəhbərləri Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində olublar. Nümayəndə heyəti Cocuq Mərcanlıda həyata keçirilən yenidənqurma və tikinti işləri ilə yaxından tanış olublar.**

***Bakı şəhər Baş Polis İdarəsinin dövlət Yol Polisi İdarəsi yol patrul xidməti inspektoru (sıravi və kiçik rəis heyəti) vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir***

**Müsabiqə avtomobil nəqliyyatına aid orta-içtisas və ya ali təhsilli, kompüterlə işləmək bacarığı, sürücülük vəsiqəsi olan, habelə sürücü kimi 3 il əmək stajına malik, yaşı 20-dən aşağı, 25-dən yuxarı olmayan, boyu 180 santimetr və daha yüksək, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, özü və yaxın qohumları məhkum olunmamış, yalnız Bakı şəhərinlə yaşayış yeri üzrə qeydiyyatda olan "Azərbaycan Respublikası" daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.**

**Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi, yol hərəkəti qaydaları üzrə nəzəri bilikləri və sürücülük vərdişləri müəyyən olunmuş qaydada yoxlanılacaq, xarici dil bilən və dövlət təhsil müəssisələrində ali təhsil almış namizədlərə üstünlük veriləcəkdir.**

**Müsabiqədə iştirak etmək istəyən şəxslər 2017-ci ilin fevral ayının 20-dən mart ayının 21-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10-dan 17-dək Bakı şəhəri BPİ DYPİ-nə (Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi kənar dairəvi yolun kəsişməsi) müraciət edərək aşağıdakı sənədlər şəxsən təqdim etməlidirlər:**

**- şəxsiyyət vəsiqəsi**
**- təhsil haqqınla sənədin əsli**
**- hərbi bilet (kişilər üçün)**
**- əmək kitabçası (onlar üçün)**
**- sürücülüq vəsiqəsi**
**- kompüterlə işləmək bacarını təsdiq edən müvafiq sənəd (sertifikat və s )**

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-21-65; (012) 590-21-66**

***Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsi***

# 27 vəzifəli şəxs işdən çıxarılıb

**Vətəndaşların müraciətlərinə baxılması və qəbulu məsələləri 2016-cı ildə mərkəzi icra hakimiyyəti orqanlarında keçirilmiş 187 kollegiya iclasında, həmçinin bir çox müşavirə və toplantılarda müzakirəyə çıxarılıb.**

Bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının (PA) Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov məlumat verib.

O bildirib ki, yol verilən nöqsanlara görə 1712 cavabdeh şəxslə bağlı tədbirlər görülüb, o cümlədən 858 nəfərə töhmət və şiddətli töhmət verilib, 31 nəfər aşağı vəzifəyə keçirilib, 5 nəfərin ixtisas dərəcəsi aşağı salınıb, 114 nəfərin əmək müqaviləsinə xitam verilib, 16 nəfərin vəzifə maaşı azaldılıb, 3 nəfərə cərimə kəsilib. Bundan başqa, 685 nəfərə xəbərdarlıq edilib:

"2016-cı ildə şəhər və rayon icra hakimiyyətləri başçıları yanında keçirilmiş 363 şura iclasında, həmçinin müşavirələrdə vətəndaş müraciətlərinə baxılması vəziyyəti müzakirəyə çıxarılıb. Müraciətlərə



baxılmasına cavabdeh 335 şəxs barəsində tədbirlər görülüb, o cümlədən 59 nəfərə töhmət və şiddətli töhmət verilib, 6 nəfər aşağı vəzifəyə keçirilib, 9 nəfərin əmək müqaviləsinə xitam verilib. Bundan başqa, 261 nəfərə xəbərdarlıq olunub".

PA rəsmisi deyib ki, 2016-cı ildə nəzarətə götürülmüş müraciətlər əsasında ayrı-ayrı şəxslər barəsində hüquq mühafizə orqanları tərəfindən araşdırmalar aparılıb, qanun pozuntusuna yol vermiş hüquqi və fiziki şəxslər cərimə olunub, vətəndaşların hüquqları bərpa edilib:

"Nəzarətə alınmış müraciətlərə baxılması nəticəsində Daxili İşlər, Maliyyə, Səhiyyə, Təhsil, Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər nazirliklərində, Dövlət Təhlükəsizliyi Xidmətində, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, Şəmkir RİH-də və başqa təşkilatlarda 27 nəfər vəzifəli şəxs vətəndaşlara münasibətdə süründürməçiliyə, vəzifə səlahiyyətlərindən sui-istifadəyə, müraciətlərin araşdırılmasında səhlənkarlığa yol verdiklərinə, etik davranış qaydalarını pozduqlarına görə vəzifəsindən kənarlaşdırılmış, 33 nəfər barəsində intizam tənbehi və ya inzibati məsuliyyət tədbirləri görülüb.

**Ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara, korrupsiyaya şərait yaradan və digər neqativ hallara yol verdiklərinə görə 6 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, 12 hakim intizam məsuliyyətinə cəlb olunub, o cümlədən 2 nəfərin tutduğu vəzifədən azad olunması barədə qərar qəbul edilib.**

**Ədil Ədilzadə**

## *Təcili yardım xidməti ödənşli oldu?*

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi icbari tibbi sığortanın tətbiq olunduğu pilot ərazilərdə - Yevlax rayonunda və Mingəçevir şəhərində təcili və təxirəsalınmaz tibbi yardım xidmətlərinin pullu olması barədə yayılan yanlış məlumatlara aydınlıq gətirib.**

**Baza zərfində göstərilən xidmətlərin ödənişini Agentlik pilot ərazilərdə rəsmi qeydiyyatda olan vətəndaşlar üçün tibb müəssisələrinə edəcək.**

**Təcili və Təxirəsalınmaz Tibbi Yardım və ilkin səhiyyə xidmətlərindən pilot ərazilərdə - Yevlax rayonunda və Mingəçevir şəhərində rəsmi qeydiyyatı olan və olmayan bütün vətəndaşlar pulsuz istifadə edə bilərlər. İcbari tibbi sığortanın ambulator və stasionar üzrə təqdim etdiyi tibbi xidmətlərdən isə yalnız pilot ərazilərdə rəsmi qeydiyyatda olan vətəndaşlar pulsuz istifadə edə bilərlər. Bütün tibbi xidmətlərin dəyərini Agentlik tibb müəssisələrinə ödəyir.**

**Baza zərfində Təcili və Təxirəsalınmaz Tibbi Yardım xidmətləri üçün göstərilən tarifləri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibb müəssisələrinə ödəyir.**

**Agentlikdən bildirilib ki, yanvar ayında Mingəçevir şəhəri üzrə 3955 nəfər, Yevlax rayonu üzrə 924 nəfər Təcili və Təxirəsalınmaz Tibbi Yardım xidmətindən istifadə edib: "Pilot ərazilərdəki Təcili və Təxirəsalınmaz Tibbi Yardım xidmətinin təkmilləşdirilməsi və əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi, maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyi icbari tibbi sığorta tətbiq edilən pilot ərazilərdə bir sıra addımlar atmaqdadır. Pilot ərazilərin ən müasir və tibbi avadanlıqla tam təchiz edilmiş 6 ambulans avtomobili ilə təminatı və bir sıra müasir, yüksək texnoloji avadanlıqlarla təmin edilməsi buna misal ola bilər".**